# Ağ Ev Şuşaya və Xankəndiyə qarşı

## Özünü ləğv edən separatçı rejimi diriltmək istəyən ABŞ Azərbaycan xalqına savaş elan edir




**ABŞ-nin ikili standartlı, humanizmdən uzaq siyasəti ilə hələ 1990-cı illərin əvvəllərindən qarşı-qarşıya qalmışıq. O illər ki, Azərbaycan işğalla üzləşmiş, bir milyondan çox azərbaycanlı yurdundan didərgin salınmış, etnik təmizləməyə, qətliamlara, soyqırımlarına məruz qalmış, çadır, vaqon, yataqxanalara sığınaraq acınacaqlı şəkildə yaşamağa başlamışdı.**

Biz 1992-ci ildə "demokratiya beşiyi" ABŞ-nin əsl çirkin üzünü göstərərək bədnam 907-ci düzəlişi etdiyinə, insanlıqdan uzaq kin, nifrət, qəddarlıqla işğala məruz qalan ölkəmizə yardım göstərilməsini qadağan etdiyinə şahidlik etmişik. "Sülh" adı altında qan-qadanı, işğalçını, müharibəni dəstəkləyən ABŞ-nin soyuqqanlılıqla milyondan çox insanımızın taleyinə qarşı sərgilədiyi biganəliyi dəhşətlə izləmişik...

Riyakar ABŞ-nin öz işinə gəldikdə müvəqqəti olaraq 907-ci düzəlişin icrasını dayandırdığını, necə deyərlər, quyruğu qapı arasından çıxdıqda isə yenidən Azərbaycanı bu düzəlişlə hədələdiyini görmüşük...

Dünyaya ağalıq etmək istəyən, utanmadan sülhdən dəm vuran ABŞ hazırda da ölkəmizi bu bədnam düzəlişlə şantaj edir.

### Azərbaycana qarşı tarixi səhv yenidən təkrarlanır

Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən köçkün düşmüş və Ermənistandan zor gücü ilə deportasiya olunmuş qaçqınların vəziyyəti ilə heç zaman maraqlanmayan ABŞ indi Qarabağı könüllü tərk edən erməniəsilli sakinlərin "zorla qovulması"ndan danışır, ölkəmizi ittiham edir, qətnamələr qəbul edir.

Erməni lobbisinin sözü ilə oturubduran ABŞ Senatı noyabrın 15-də ölkəmizi hədəf alan "2023-cü il erməniləri müdafiə aktı"nı qəbul edərək, Azərbaycana qarşı növbəti qərəzini nümayiş etdirdi.

Milli Məclisin noyabrın 21-də keçirilən iclasında ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar qəbul etdiyi bəyanatda da deyilir ki, Bayden Administrasiyasının təhriki ilə anti-Azərbaycan, korrupsiyaçı, islamofob senatorların saxta məlumatları əsasında ABŞ Senatının qəbul etdiyi akt ikili standartların və selektiv yanaşmanın növbəti bariz nümunəsidir. Absurd teatr səhnəsini xatırladan dinləmələr isə ABŞ-nin riyakar siyasətinin yeni bir təzahürüdür.

Bəyanatda o da vurğulanır ki, "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılmasını ləğv etməklə ABŞ tərəfi Azərbaycana qarşı 1992-ci ildə yol verdiyi tarixi səhvi, təəssüf ki, yenidən təkrarlayır. Halbuki 2001-ci il 11 sentyabr hücumlarından sonra Azərbaycan ABŞ-nin terrora qarşı mübarizə səylərini dəstəklədiyi zaman 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması qərarını verən də ABŞ olmuşdur.

Məhz Azərbaycan hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla ABŞ tərəfinə yardım əlini uzatmışdır. Əfqanıstanda terrorizmə qarşı ABŞ ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən biri də Azərbaycan olmuşdur. Eyni zamanda Azərbaycan Əfqanıstanı tərk edən sonuncu tərəfdaş ölkə idi.

### ABŞ regionda vəziyyətin gərginləşməsində maraqlıdır

Bütün bu faktlar da göstərir ki, ABŞ-nin Azərbaycana qarşı münasibəti hər zaman riyakar olub və islamofob dövlət çıxarı olmadığı təqdirdə ölkəmizə qarşı dost mövqedə olmayıb.

Qarabağ münaqişəsinin nizamlanması prosesində vasitəçi kimi 27 il ərzində tərəflərin barışıq əldə etməsi üçün heç bir əməli fəaliyyət göstərməyən ABŞ ötən müddətdə təcavüzkar Ermənistana dəstək verib, Azərbaycan torpaqlarının işğalına göz yumub.

BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü ilə yerinə yetirərək torpaqların işğaldan qurtaran, suverenliyini bərpa edən və ərazisindəki separatizm yuvasını dağıdan Azərbaycan ölkəmizi könüllü tərk etmək istəyən erməni sakinlərə hər cür şərait yaradıb. Qarabağ iqtisadi zonasında qalaraq Azərbaycan qanunları ilə yaşamağa razı olan erməniəsilli sakinlərə ləyaqətli və təhlükəsiz həyat şəraiti yaradıb.

Eləcə də Vətən müharibəsindən dərhal sonra Azərbaycan Ermənistana sülh təklif edib, iki ölkə arasında normallaşmaya nail olunması üçün üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri zamanından öncə və layiqli bir şəkildə həyata keçirib.

Bütün bu reallıqların fonunda ABŞ-nin təcavüzkar Ermənistanı dəstəkləməsi, özünü buraxdığını elan edən qondarma "Dağlıq Qarabağ Respublikası"nı müdafiə etməsi birbaşa Cənubi Qafqazda savaşa xidmət edir.

### "Maskaları çıxarın!"

Faktdır ki, ABŞ-nin hakimiyyət orqanlarında, o cümlədən Konqresində kök salmış islamofob qüvvələrin güclənməsi nəticəsində müxtəlif təşkilatlar, xüsusən USAID humanitar yardım çətiri altında casus şəbəkəsi yaradaraq, müstəqil siyasət yeridən ölkələrdə "rəngli inqilablar" və dövlət çevrilişləri etməyə cəhd göstərməklə ölkələrin daxili işlərinə kobud müdaxilə edirlər.

Azərbaycan da ABŞ-nin yürütdüyü bu təhlükəli siyasətin hədəfindədir. Bu günlərdə USAID direktoru Samanta Pauerin Azərbaycanın Qarabağ regionunun erməni sakinlərinin Ermənistana miqrasiyasını məcburi köç adlandırması da əsassız və ədalətsiz mövqenin göstəricisidir.

Qarabağdakı erməni sakinlər könüllü şəkildə ölkəmizi tərk ediblər və bu BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların rəylərində də öz əksini tapıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında Samanta Pauerə cavabında bildirib ki, akademik və ya peşəkar qərəzsizliyə iddia etmək düzgün olmazdı, belə ki, universitetdə "İnsan haqları" təlimləri professoru kimi Samanta Pauer "Cəhənnəmdən bir problem: Amerika və soyqırımı çağı" adlı təbliğat kitabında Ermənistanın günahsız mülki azərbaycanlılara qarşı törətdiyi soyqırımı və vəhşilik aktları qarşısında tamamilə susqun qalıb.

Prezidentin köməkçisi əlavə edib ki, "Aurora" mükafatının himayəsi altında Samanta bu fondun qurucusu, Ukraynada separatizmi maliyyələşdirən bədnam oliqarx və pul yuyan Ruben Vardanyan ilə birləşdi.

Azərbaycanofobiya, türkofobiya, siyasi korrupsiya, "puldan söhbət" və "Aurora" mükafatı çərçivəsində siyasi spekulyasiyalar, ehtimal ki, Ruben Vardanyan və Samanta Pauerin ortaq dəyərləri və maraqları idi: "Maskaları çıxarın! Azərbaycanda artıq USAID-in fəaliyyətinə yer yoxdur!"

Oturduğu yeri belə tapmaqda çətinlik çəkən Baydenin timsalında ABŞ hakimiyyətinin "dünyaya nizam vermək" kimi böyük iddia və iştahası ikrah, gülüş doğurur. Eləcə də Vaşinqtonun ölkəmizə qarşı qərəzli siyasəti Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərbə vurmaqdan başqa bir işə yaramır.

Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri əsasında öz milli maraqlarını təmin edib. Bundan sonra da ölkəmizi, xalqımızı təhdid edən, milli maraqlarımıza zidd addımlara qətiyyətlə cavab verəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 23 noyabr, № 255.- S.9.